# Elmi konfrans keçirilib

Yazan Manager
28.11.17 14:16 - axırıncı dəyişikliklər 07.12.17 12:34




24 noyabr 2017-ci il tarixdə ADPU-nun Şəki filialında böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyinə həsr olunmuş elmi konfrans keçirilib.  Konfransı giriş sözü ilə filialın elmi işlər üzrə direktor müavini dos. Nuralı Çələbiyev açaraq bildirib ki, möhtərəm Prezident cənab İlham Əliyevin 12 yanvar 2017-ci il tarixli Sərəncamı ilə, çoxəsrlik ədəbiyyat tariximizdə silinməz izlər qoymuş qüdrətli söz ustası

Molla Pənah Vaqifin anadan olmasının 300 illik yubileyi 2017-ci ildə dövlət səviyyəsində qeyd olunur. Natiq bildirib ki, bu elmi konfrans da filialın illik iş planına uyğun olaraq, şairin 300 illik yubileyi münasibəti ilə təşkil olunub. Sonra konfransda filialın Humanitar fənlər kafedrasının baş müəllimi, AYB-nin Şəki bölməsinin sədri Vaqif Aslanın "Molla Pənah Vaqif və Şəki ədəbi mühiti" mövzusunda məruzəsi, Humanitar fənlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Vüsal Baxışovun "XVIII əsrin son rübündə Cənubi Qafqazda cərəyan edən geosiyasi proseslərdə Molla Pənah Vaqifin iştirakı", həmin kafedranın baş müəllimləri - Pakizə Zakirovanın "Molla Pənah Vaqifin yaradıcılığının tədqiqi və öyrənilməsi tarixindən", İlahə Süleymanovanın "Molla Pənah Vaqifin özündən sonrakı ədəbi nəslə təsiri", filialın Ümumelmi fənlər kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Kamil Adışirinovun "Şifahi xalq ədəbiyyatı Molla Pənah Vaqifin yaradıcılığında təzahür edən hedonizmin və nikbinliyin əsas mənbəyi kimi" mövzusunda çıxışları dinlənilib.

Sonra konfrans bədii hissə ilə öz işini davam etdirib. Bədii hissədə filialın tələbələrinin təqdimatında ədəbi-bədii kompoziya nümayiş etdirilib və şairin şeirlərindən nümunələr səsləndirilib.

Açıq dərsin qısa video çarxını buradan izləyə bilərsiniz


ADPUShekifiliali


ADPUShekifiliali


ADPUShekifiliali


ADPUShekifiliali


ADPUShekifiliali


ADPUShekifiliali


ADPUShekifiliali


ADPUShekifiliali